**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**Tarix və Coğrafiya Fakültəsinin**

**Strateji Bəyannaməsi**

**1.Missiyamız:**Milli şüura malik, dərin düşüncəyə sahib, elmə, insan hüquqlarına hörmətlə yanaşan, innovativ fərdlər-pedaqoqlar yetişdirmək; Təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi, mədəni və mənəvi səviyyəsinin yüksəldilməsinə töhfə vermək.

**2.Gələcəyə baxışımız (vizyonumuz):** Beynəlxalq standartların tələblərinə uyğun kadr hazırlığını təhsilin əsasları, ixtisas və innovasiyalar istiqamətində həyata keçirmək.

**3.Əsas dəyərlərimiz:**

**-Bütövlük/şəffaflıq**: ədalətli, vicdanlı və etik davranmaq, fakültənin bütün fəaliyyət və qərar vermə proseslərində güvən formalaşdırmaq.

**-Mükəmməllik**: davamlı olaraq yüksək keyfiyyətli proqramlar, tədris və xidmət təqdim etməklə cəmiyyətin inkişafına xidmət göstərmək.

**-İnnovasiya:** fərdi kreativliyi təşviq edərək ideyaların inkişafını dəstəkləməyə imkan verən mühit yaratmaq.

**-Cavabdehlik:** fakültəyə ayrılmış resursları səmərəli idarə etməklə akademik və proqram bütövlüyünü təmin etmək.

**-Ehtiram:** bütün fəaliyyət və qərar qəbulunda hər kəsə şəffaf və peşəkar yanaşaraq fikir müxtəlifliyini təmin etmək.

-**Əməkdaşlıq**: komanda işinə, iştirakçılığa, ideya və perspektivlərin müxtəlifliyinə dəyər verərək ümumi məqsədlər üçün fakültənin yerli, regional və qlobal səviyyədə digər tərəfdaşlarla əməkdaşlığına çalışmaq.

**4.Əsas hədəflərimiz:**

-Tələbələrdə universitet və fakültə məmnunluğunu gücləndirmək (tələbələr arasında sorğular və müəllimlərin qiymətləndirilməsi kimi metodlardan istifadə edərək)

-Fakültədə təhsil alan tələbələrin nəticələrini yüksəltmək (universitet xarici imtahanlar, işlə təmin olunma (karyera mərkəzi ilə əməkdaşlıq əsasında), əmək bazarının ehtiyaclarını nəzərə almaqla və s.)

-Fakültəyə yüksək bacarıqlara malik tələbələri cəlb etmək (qəbul balları əsasında) və yüksək balla qəbul olunan tələbələrin bacarıq potensiallarının tədqiqat-innovasiya istiqamətində inkişafına nail olmaq.

Azərbaycan Dövlət Pedaqoji
Universiteti
Tarix və Coğrafiya Fakültəsinin
**Loqosunun rəsmi izahı**

Bu loqo Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix və Coğrafiya Fakültəsinin əsas mahiyyət və prinsiplərini özündə ehtiva etməkdədir.

Loqo **qlobus** forması və onun mərkəzində **yerləşən Azərbaycan Respublikası xətirəsi** ilə **Qobustan qayaüstü təsvirləri**ni əks etdirməkdədir.

Fakültənin adını əks etdirən təsvirlər orada tədris olunan əsas ixtisasların da məğzini ifadə edir. Loqodakı **qlobus** həm tarixi, həm də coğrafi aspektdən nəzərə alınaraq yerləşdirilmişdir. **Azərbaycan Respublikası xəritəsi** və **Qobustan qayaüstü təsvirləri** fakültənin eyni zamanda Azərbaycanın tarix və coğrafiyası ilə bağlı tədris apardığını göstərir. Beləcə həm insani, həm də milli dəyərlərə cavab verən kadr hazırlığının simvolik ifadəsi ön plana çıxarılmışdır. Xəritə və təsvirlərin məhz mərkəzdə yerləşməsi, milli və mənəvi dəyərlərdən hərəkətlə insanlıq üçün yararlı nəslin formalaşdırılması məqsədi ifadə edilmişdir.

# Azərbaycan Dövlət Pedaqoji Universiteti
# Tarix və Coğrafiya Fakültəsinin
# 2022-2025-ci illər üçün Strateji İnkişaf Planı

**1.Tədris-metodiki işlər**

1.1Tarix və coğrafiya fakültəsində Tarix müəllimliyi və Coğrafiya müəllimliyi ixtisaslarında “Eksperimental” qrup formalaşdırmaq.

- Əlavə tədris olunacaq fənlər: **Tənqidi təfəkkür, Məntiqi təfəkkür, XXI əsr bacarıqları, Azərbaycanın Geosiyasi Vəziyyəti, Cultural geography, World in crisis?, Təhsil tarixi, Təhsilin fəlsəfəsi, Azərbaycan Xalq Cümhuriyyəti tarixi, Xarici dil, Proqramlaşdırma, STEAM** və s. fənlərinin tədrisi.

1.2 Tarix-coğrafiya müəllimliyi ixtisası üzrə Sabah qruplarının yaradılması.

1.3. İngilis dilli bölməsi qruplarının yaradılması.

1.4. Ağıllı lövhələrdən istifadə ilə bağlı fakültədə təlimlərin keçirilməsinin təşkili (mövcud əldəki resurslardan istifadə etməklə).

1.5. Fakültədaxili istənilən zaman dərs müşahidələrinin aparılması və dinlənilən dərslərin müzakirəsi(meyarlar əsasında):

- Fakültədə tədrisin keyfiyyətinin artırılması
  - 1.5.1. 1-ci kurs Tarix və coğrafiya müəllimliyi ixtisası tələbələrinin ÜOMG-nin yüksəksəldilməsinə nail olmaq.
  - 1.5.2. Fakültədə demokratik mühitin yaradılmasını təmin etmək.

1.6. ADPU STEAM Mərkəzi ilə birlikdə Tarix ve coğrafiyanın tədrisində STEAM yanaşması mövzusunda seminarların təşkili.

1.7. Fakültədaxili müəllimlərin tədris bacarıqları keyfiyyətinin ölçülməsi məqsədilə tələbələr arasında anonim onlayn sorğuların keçirilməsi.

**2.Elmi-tədqiqat fəaliyyəti**

2.1. Beynəlxalq əlaqələr:

- Danimarka, Kopenhagen Universitet Kolleci-KP (ilə əlaqələrin genişləndirilməsi)
- V.Q. Koralenko adına Poltava Milli Pedaqoji Universiteti (Ukrayna) və ADPU ilə əməkdaşlıq (müvafiq universitetlərin Tarix və coğrafiya fakültələri arasında).
- Oradea Universiteti (Rumıniya) ilə ADPU Tarix və Coğrafiya fakültəsi arasında əməkdaşlıq (Beynəlxalq əlaqələr şöbəsi ilə birgə).

2.2. Fakültə e-jurnal (beynəlxalq-elmi): ildə 2 dəfə dərc olunmaqla (azərbaycan, ingilis, rus, türk dillərində)

2.3. “Türkiyə Cümhuriyyətinin 100 illiyi” adlı beynəlxalq simpoziumun keçirilməsi.
2.4. “Azərbaycanda tədqiqat və tətəbbö cəmiyyəti 100” adlı beynəlxalq simpoziumun keçirilməsi.
2.5. “Məktəb coğrafiyasının müasir problemləri” adlı konfransın keçirilməsi (Məktəb coğrafiya müəllimləri, dərslik müəllifləri, universitetlərin metodika kafedra müəllimlərinin, AMEA akad. Həsən Əliyev adına Coğrafiya institunun əməkdaşlarının iştirakını təmin etmək)
2.6. Akademik karyerasını davam etmək istəyən tələbələr üçün “Elmi tədqiqat metodlarının öyrədilməsi” mövzusunda seminarların təşkili.

**3.Təşkilati-metodik işlər**

3.1. Karyera mərkəzinin yaradılması ilə bağlı məsələlər:

3.1.1. Fakültədə Universitet Karyera Mərkəzi ilə əməkdaşlıq çərçivəsində mərkəzin yaradılması.

3.1.2. Məzunlarla bağlı bankın yaradılması.

3.1.2.1. Məzunların izlənilməsi, Məzun Koordinasiya işinin təşkili, Xaricdə təhsil, MİQ, Magistratura və s.

3.1.2.2. Məzunlarla görüşlərin təşkili.

3.1.3. Buraxılış kurs tələbələrinə karyera ilə bağlı məsləhətlərin verilməsi, treyninqlərin keçirilməsi.

3.2. Fakültə guşəsinin yaradılması (İnformasiya guşəsi, məqalələrin çapı və s. ilə bağlı məlumatların paylaşılması)

3.2.1. Şərəf lövhəsi, əlaçılar, tanınmış məzunlar, fakültənin tarixi və s. ilə bağlı guşənin yaradılması

3.3. Laboratoriyaların (kabinet) yaradılması:

- Fəlsəfə (sosiologiya) (Əyani vəsaitlər)
- Coğrafiya (süxurlar, cihazlar, divar xəritələri, əyani vəsaitlər və s.)
- Tarix (Xəritələr, arxeoloji nümunələr, eksponatlar)
- Mövcud xəritələrin yararlı hala salınması
- Coğrafiya fənninin tədrisi üçün anbardakı lazımi avadanlıqların yenidən istifadəsini təşkil etmək.

3.4. Oxu zalındakı kompüterlərin ümumi vəziyyətinin yaxşılaşdırılması

3.5. Fakültə komissiyaların təşkili və fəaliyyəti:

3.5.1. Daxili intizam komissiyasının yaradılması:

- Fakültə daxili daxili nizam-intizam qaydalarının pozulması və s. hallara nəzarət.

3.5.2. Tədris-metodiki Şurası:

- Mütəmade olaraq müəllimlərin fəaliyyətinin monitorinqinin aparılması.

3.6. Təkliflər qutusunun hazırlanması və yerləşdirilməsi.
3.7. Kapitalbank bankomatının və PayPoint aparatının Tarix və Coğrafiya fakültəsinə yerləşdirilməsi.
3.8. Muzeylərlə əməkdaşlıq (Müəllim və tələbələrin Bakı şəhərində yerləşən muzeylərə güzəştli girişinin təmin edilməsi)

**4.Sosial fəaliyyət**
4.1. Yay məktəbi; seçilmiş tələbələr (Nizam-intizam, ÜOMG, semestr ərzində fakültənin ictimai işlərində iştirak və s.) üçün kampların (2-3 günlük) təşkil edilməsi:

- Qusar inzibati rayonu ərazisində yerləşən bazada çadır kamplarının təşkili.
- Seçilmiş tələbələr üçün Şuşa gəzintisinin təşkili
- ADPU-nun Quba filialında tələbələrin qalmasını təşkil etmək
- ADPU-nun Şəki filialına tələblərin qalmasını təşkil etmək
- Qəbələ rayonu ərazisində tələbələrin arxeoloji qazıntı işlərində iştirakını təmin etmək.
- Kamp müddətində təlim proqramının müəyyənləşdirilməsi

4.2. Sosial fəaliyyətlərin keçirilməsi:
4.2.1. Klubun yaradılması
4.2.1.1. Müasir dövrün tələblərinə uyğun olaraq tələbələrin özünüdərk və təfəkkürünün inkişafı üçün klubun yaradılması (film, məqalə, kitabların müzakirəsi)
4.2.2. Debatların keçirilməsi (elmi seminarlar, müəllimlər arasında brain storming, tələbələr arasında seçilmiş mövzular üzrə debatların təşkili)
4.3. Fakültə qəzetinin çıxarılması
4.4. Fakültə nəzdində olan təşkilatlarla işin təşkili
4.5. Magistr tələbələri ilə işin təşkili:

- Akademik potensiallarından istifadə
- Karyera planlaşdırılması

4.6. Müxtəlif mövzularda xüsusi dəvət olunmuş mütəxəssislər tərəfindən "masterclass"ların keçirilməsi.